**Mikroiqtisadiyyat - mikronun qızıl dövrü**

İqtisadiyyatı inkişaf etmiş ölkələrdə böhran dövründə mikroiqtisadi mövzular xüsusi aktuallıqla izlənilir və uğurlu lahiyələr peşəkar mətbuatda yayımlanır, müzakirə obyektinə çevrilir. Böyük Britaniyanın «The economist» («İqtisadçı») elektron qəzetində dərc edilmiş belə mövzulardan biri barədə materialın tərcüməsini nəzərinizə çatdırırıq:

Mikroiqtisadçılar böhrana qarşı mübarizə apararaq və dünyanın ən innovativ şirkətlərinə məsləhətlər verərək böyük nailiyyətlər əldə edirlər, ən ali mükafatları qazanırlar. Bu həftə də iki nəfər mikroiqtisadçı Nobel mükafatı ilə təltif olundu. Onların bu davamlı nailiyyətlərinin səbəbi nədir?

Hər şeydən əvvəl, belə görünür ki, mikroiqtisadçılar köhnə əsasların üzərində yeni nəticələr əldə etməyi bacarırlar. Məsələn, Nobel mükafatını alan iqtisadçılar, əslində, kooperativ (birgə) oyun nəzəriyyəsinə əsaslanırdılar, bu nəzəriyyənin tarixi isə bir neçə on il bundan əvvələ gedib çıxır. Kooperativ oyun nəzəriyyəsinə əsasən, insanlar birgə çalışanda daha böyük nəticələrə nail olurlar; araşdırmalara görə, birgə əldə olunan nəticələri fərdlər ayrı-ayrılıqda əldə edə bilmirlər. Əlli il vaxt keçməsinə baxmayaraq, digər nəzəriyyələrlə yanaşı, kooperativ oyun nəzəriyyəsindən hələ də istifadə olunur, hətta ən müasir hərrac tərtibatlarında da.

Makroiqtisadi problem olan qeyri-ənənəvi monetar siyasət məsələsinə baxaq. 2007-2008-ci illərdə mərkəzi banklar və maliyyə nazirlikləri qərara aldılar ki, likvid aktivlərin (nağd pul və ya xəzinə veksellləri) qeyri-likvid aktivlərlə mübadilə olunması yaxşı ideyadır. Lakin konkret olaraq bunu necə həll etmək isə tamamilə başqa bir sual idi. Burada başlıca problem ümidsiz aktivlər üçün hansı qiymətin ödənilməsi idi.

Mikroiqtisadiyyat nəzəriyyəçiləri bu məsələni cavablandırdılar. Amerikada müxtəlif mütəxəssislər ABŞ Xəzinədarlığına müxtəlif məsləhətlər verdilər. Lakin ən yaxşı nümunə İngiltərə Bankının istifadə etdiyi və mikroiqtisadçı Paul Klemperer tərəfindən tərtib olunan hərracın yeni növü - malların çeşidi (Product Mix) üzrə hərrac oldu. Bankın İdarə Heyətinin sədri Sir Mervin Kinq mikro nəzəriyyəni çox faydalı hesab edir: «İngiltərə Bankının Klempererin hərraclarından bizim likvidlik sığortası əməliyyatlarında istifadə etməsi nəzəri iqtisadiyyatın praktiki problemlərinin həllində ən gözəl tətbiqdir.»

Mikroiqtisadi nəzəriyyənin üstünlüklərindən biri də odur ki, nəticələr çox sadə formada təqdim olunur. Məsələn, Klempererin hərracının nəticələri sadə bir qrafik formatda təqdim olundu və hətta qeyri-mütəxəssislər belə bu nəticələri aydın şəkildə başa düşdülər. Makroiqtisadiyyatda da, əslində, sadə riyazi təhlillərdən istifadə olunur, lakin qeyri-mütəxəssislər üçün onun başa düşülməsi çətinlik yaradır.

Mikroiqtisadiyyat digər sahələrdə də son illərdə böyük nailiyyətlər əldə etmişdir: Facebook sosial şəbəkəsi, birjalar, qəzetlər və s. Onlar, əslində, iki növ istifadəçini birləşdirən platforma və ya vasitəçidir (Facebook istifadəçilərlə reklamçıları, birjalar alıcıları və satıcıları birləşdirir). Bu platformaların iqtisadi təhlili mikroiqtisadiyyatın yeni bir bölməsini yaratdı. Həmin bölmənin əsasını 2000-ci illərin əvvəllərində Jean Tirole və Jean Charles-Rochet qoymuşlar.

İdeya ondan ibarətdir ki, ikitərəfli bazarda qiymətlərin dəyişdirilməsi daha mürəkkəb bir hadisələr zəncirinə gətirib çıxarır. Təsəvvür edin ki, hər hansı yerli qəzet qiyməti qaldırır. Yuxarı qiymət daha çox mənfəət deməkdir. Lakin oxucu kütləsinin azalması nəticəsində artıq qəzet reklamçıları cəlb edə bilmir və nəticədə tiraj get-gedə azalır. Beləliklə, artıq başa düşürük ki, nə üçün aparıcı mikroiqtisadçılar innovativ texnologiya şirkətlərinin aparıcı məsləhətçiləridir. Hal Varian bəlkə də dünyanın ən tanınmış mikroiqtisadçısıdır və «Google» şirkətində aparıcı iqtisadçı vəzifəsində çalışır. Eləcə də Susan Athey «Microsoft»da; Patrick Bajari «Amazon»da; Steve Tadelis «eBay»da işləyir... Təsəvvür edin ki, bu cür mütəxəssislər banklarda biznes-məktəblərdə çalışırlar, lakin məsələ ondadır ki, mikroiqtisadiyyatda «real dünya» təcrübəsi nə qədər çox bəhrə versə də makroiqtisadiyyatda bu, bir o qədər qeyri-konkret və anlaşılmaz görünür.